*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*



**Heydər ƏLİYEV**


# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır | 7 dekabr 2019-cu il | № 95 (2412) | Qiyməti 30 qəpik


# Müdafiə naziri cəbhəboyu zonada yerləşən hərbi hissələrdə olub



*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin tapşırığına əsasən, Müdafiə Nazirliyinin rəhbər heyəti cəbhəboyu zonada yerləşən hərbi hissələrdə və döyüş mövqelərində olub.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, döyüş postlarında növbə çəkən şəxsi heyətlə görüşən Müdafiə naziri general-polkovnik Zakir Həsənov müdafiənin dayanıqlığını, qışa hazırlığının vəziyyətini, hərbi qulluqçuların döyüş və mənəvi-psixoloji hazırlığını yoxlayıb, komanda-müşahidə məntəqəsindən düşmən mövqelərini izləyib.

Əməliyyat şəraitinin vəziyyəti barədə məruzələri dinlədikdən sonra Müdafiə naziri bölmələrin daima döyüşə hazır vəziyyətdə olmasını təmin etmək məqsədilə müvafiq tapşırıqlar verib.

Sonra nazirliyin rəhbər heyəti Horadiz şəhərində yerləşən Aprel şəhidlərinin xatirəsinə ucaldılmış abidəni ziyarət edərək önünə gül dəstələri qoyub, ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda canından keçən şəhidlərin xatirəsini hörmət və ehtiramla yad edib.

Müdafiə Nazirliyinin rəhbərliyi səfər çərçivəsində şəhidlərimizin xatirəsinin əbədiləşdirilməsi məqsədilə inşa olunan "Şəhidlər bulağı"nın açılış mərasimində iştirak edib. Sonra ərazidə uzunömürlülüyün simvolu olan çinar ağacları əkilib.

Müdafiə naziri cəbhəboyu zonaya yaxın ərazidə yeni istifadəyə verilmiş mühəndis şəhərciyində də olub.

Bildirilib ki, mühəndis hazırlığının yüksək səviyyədə təşkili və yerinə yetirilməsini təmin etmək, şəxsi heyətin mühəndis təminatı tapşırıqlarını mürəkkəb döyüş şəraitində ərazinin relyefini nəzərə almaqla yerinə yetirməsi vərdişlərini təkmilləşdirmək üçün şəhərcikdə lazımi infrastruktur yaradılıb.

Real döyüş şəraitinə uyğun inşa edilən təlim mərkəzində xüsusi texnikanın mürəkkəb relyef və sərt iqlim şəraitində idarə olunması üzrə praktiki vərdişlərin təkmilləşdirilməsi, həmçinin döyüş tapşırıqlarının məşq etdirilməsi nəzərdə tutulub.

Müdafiə naziri mühəndis qoşunlarının komandanlığına şəxsi heyətin döyüşə hazırlıq səviyyəsinin artırılması və döyüş vasitələrinin effektiv istifadəsi ilə bağlı müvafiq tapşırıqlar verib.

# Müdafiə naziri cəbhəboyu zonada yeni inşa edilən mühəndis təyinatlı hərbi obyektlərin açılışında iştirak edib

*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin təsdiq etdiyi Azərbaycan Ordusunun modernizasiyası və yenidənqurma işləri planına əsasən, həyata keçirilən fəaliyyətlər davam etdirilir.*



Müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti cəbhəboyu zonada yeni inşa edilən mühəndis təyinatlı hərbi obyektlərin açılışında iştirak ediblər.

Müdafiə Nazirliyinin rəhbərliyi yeni istifadəyə verilən qərargah binası ilə də tanış olub. Qeyd olunub ki, qərargah mərkəzləşdirilmiş istilik sistemi, işıq, su, qaz və kommunikasiya xətləri ilə təchiz edilmiş inzibati və xidməti iş otaqları mebel avadanlıqları ilə də təmin olunub.

Müdafiə nazirinə məruzə edilib ki, mühəndis-istehkam hərbi hissələrinin yerinə yetirdiyi vəzifələr nəzərə alınmaqla, bu bölmələrin texniki baxımdan təkmilləşdirilməsi və döyüş potensialının artırılması üçün müasir texnika alınaraq qoşunların sərəncamına verilib. Hərbi əməliyyatların mühəndis təminatının yerinə yetirilməsi zamanı tətbiq olunan müxtəlif növ texnikanın saxlandığı park, şəxsi heyətin hazırlığı üçün nəzərdə tutulan taktiki sinif otaqları və digər inzibati binalar müvafiq avadanlıqlar və əyani təbliğat vasitələri ilə tam təchiz edilib.

General-polkovnik Zakir Həsənov mühəndis qoşunlarının komandanlığına bölmələrin döyüş qabiliyyətinin artırılması və döyüş vasitələrinin effektiv istifadəsi ilə bağlı müvafiq tapşırıqlar verib.

Sonda nazirliyin rəhbərliyi şəxsi heyətlə birlikdə nahar edib.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Müdafiə naziri cəbhəboyu zonada artilleriyaçıların döyüş hazırlığını yoxlayıb

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin tapşırığına əsasən, cəbhə bölgəsində olan Müdafiə Nazirliyinin rəhbərliyi artilleriyaçıların döyüş hazırlığını yoxlamaq məqsədilə ön xətdə yerləşən artilleriya hərbi hissəsində olub.



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Raket və Artilleriya Qoşunları bölmələrinin şəxsi heyəti ilə görüşən nazirliyin rəhbərliyi vəziyyətlə yerində tanış olaraq onların döyüş hazırlığını, döyüş vəziyyətində tətbiqini, idarəetmə fəaliyyətini və şəxsi heyətin mənəvi-psixoloji vəziyyətini yoxlayıb, silahlanmada olan silah və texnikaya baxış keçirib.

Müdafiə naziri Raket və Artilleriya Qoşunlarının döyüşə hazırlıq səviyyəsinin daha da artırılması və döyüş vasitələrinin effektiv istifadəsi ilə bağlı komandanlıq qarşısında müvafiq tapşırıqlar qoyub.

# Müdafiə naziri cəbhəboyu zonadakı hərbi hissələrdə aparılan tikinti işlərinin gedişi ilə tanış olub

*Silahlı Qüvvələrin Ali Baş Komandanının tapşırığının icrası ilə əlaqədar Müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti cəbhəboyu zonada tikintisi davam edən bir neçə hərbi obyektdə olublar.*



Müdafiə nazirinə məruzə edilib ki, istifadəyə verilməsi planlaşdırılan bu hərbi şəhərciklər su, qaz, istilik və digər kommunikasiya sistemləri ilə tam təmin olunacaq, hərbi obyektlərdə ən müasir qurğular quraşdırılacaqdır.

Bildirilib ki, bu hərbi şəhərciklərdə qərargahlar, hərbi qulluqçular üçün xidməti mənzillər, əsgər yataqxanaları, yeməkxanalar, döyüş texnikası üçün saxlanclar, digər inzibati bina və qurğular inşa ediləcək. Eyni zamanda, burada hərbi polisin xidməti fəaliyyətinin təşkili üçün otaqlar, müvafiq məişət və ictimai iaşə obyektləri, o cümlədən qazanxana, hamam-camaşırxana kompleksləri, tibb məntəqələri və digər infrastruktur obyektlərinin tikilməsi də nəzərdə tutulub.

Hərbi obyektlərdə aparılan tikinti işlərinin gedişini yoxlayan Müdafiə naziri bu işlərinin keyfiyyətli aparılması və vaxtında başa çatdırılması ilə əlaqədar müvafiq tapşırıqlar verib.

**Müdafiə Nazirliyi Mətbuat Xidmət**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***6 dekabr 2019-cu il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 23 dəfə pozub.

Ermənistan Respublikası İcevan rayonunun Berkaber və Paravakar kəndlərində yerləşən mövqelərdən Ağstafa rayonunun Köhnəqışlaq, Qazax rayonunun Qızılhacılı kəndində, Berd rayonunun Ayqedzor kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Muncuqlu kəndində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Ağdam rayonunun Tağıbəyli, Şıxlar, Yusifcanlı, Füzuli rayonunun Qaraxanbəyli kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər və Ağdam rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

## Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində növbəti monitorinq keçirilib

ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, dekabrın 4-də Füzuli rayonu ərazisində Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində keçirilən monitorinq insidentsiz başa çatıb.

Monitorinqi Azərbaycan tərəfindən şəxsi nümayəndənin səhra köməkçiləri Gennadi Petrika və Saymon Tiller keçiriblər.

Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş və nəzarət olunan Azərbaycan ərazisində isə monitorinqi şəxsi nümayəndənin səhra köməkçiləri Mixail Olaru və Oqnyen Yoviç aparıblar.

# Müdafiə naziri Pakistanın ölkəmizdə diplomatik fəaliyyəti başa çatan səfiri ilə görüşüb



*Dekabrın 5-də Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizdə diplomatik fəaliyyəti başa çatan Pakistan İslam Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Said Xan Mohmand ilə görüşüb.*

Azərbaycan ilə Pakistan arasında bütün sahələrdə olduğu kimi, hərbi sahədə də əməkdaşlığın inkişaf etdiyini vurğulayan Müdafiə naziri bunun gələcəkdə də davam etdiriləcəyinə əminliyini ifadə edib.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, görüşdə hərbi əməkdaşlığın hər iki ölkənin maraqlarına cavab verdiyi əsas gətirilərək bu istiqamətdə səylərin daha da artırılmasının zəruriliyi vacib hesab edilib. Ölkələrimizin yerləşdiyi regionda baş verən son hadisələrin müzakirəsi zamanı Azərbaycan Ordusu ilə Pakistan Silahlı Qüvvələrinin müxtəlif qoşun növlərinin, o cümlədən xüsusi təyinatlı qüvvələrin cəlb edilməsi ilə birgə hərbi təlimlərin keçirilməsi, təcrübə mübadiləsi məqsədilə hərbi qulluqçuların qarşılıqlı səfərlərinin təşkili və bir sıra digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Regiondakı hərbi-siyasi vəziyyətə toxunan Müdafiə naziri Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı Pakistanın ölkəmizin ədalətli mövqeyini beynəlxalq təşkilatlarda dəstəklədiyinə görə minnətdarlığını bildirərək vurğulayıb ki, Azərbaycan da Pakistan İslam Respublikasının ərazi bütövlüyünü dəstəkləyir.

Ölkəmizdə diplomatik fəaliyyəti müddətində Azərbaycan-Pakistan hərbi və hərbi-texniki sahələrində əlaqələrinin genişləndirilməsində göstərdiyi səylərə görə səfirə təşəkkürünü bildirən general-polkovnik Zakir Həsənov ona gələcək işlərində də uğurlar arzulayıb.

Diplomat isə öz növbəsində ölkəmizdən xoş təəssüratlarla ayrıldığını, Azərbaycan dövlətinin və xalqının daim səmimi dostu olaraq qalacağını bildirib. Səfir qeyd edib ki, ölkələrimizin coğrafi baxımdan bir-birindən uzaq məsafədə yerləşməsinə baxmayaraq, xalqlarımız arasında tarixən dostluq münasibətləri mövcuddur. Müxtəlif sahələrdə münasibətlərin genişlənərək xeyli gücləndiyini qeyd edən pakistanlı səfir iki ölkənin hərbi sahədə əməkdaşlığının böyük potensialının olduğunu bildirib.

Görüşdə ölkələrimiz arasında hərbi, hərbi-texniki, hərbi-təhsil və digər sahələrdə əməkdaşlığın inkişaf perspektivlərinə dair fikir mübadiləsi aparılıb, iki ölkə arasında hərbi əməkdaşlığın dostluq və qardaşlıq münasibətləri üzərində qurulduğu və tərəflər üçün qarşılıqlı faydalı olduğu vurğulanıb.

# Müdafiə naziri Qətərin yeni təyin olunmuş səfiri ilə görüşüb



Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov Qətər Dövlətinin ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Feysal bin Abdullah Həməd Abdullah Al Hinzab ilə görüşüb.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, səfiri ölkəmizdə diplomatik fəaliyyətə başlaması münasibətilə təbrik edən Müdafiə naziri ona Azərbaycan ilə Qətər arasında əməkdaşlığın genişləndirilməsi istiqamətində uğurlar arzulayıb.

Azərbaycan-Qətər münasibətlərinin inkişafında ölkə rəhbərlərinin səylərini xüsusi vurğulayan general-polkovnik Zakir Həsənov ölkələrimiz arasında hərbi sahədə də əlaqələrin uğurla inkişaf etdiyini deyib.

Tərəflər Azərbaycan ilə Qətər arasında hərbi sahədə əməkdaşlıq üçün böyük potensialın olduğunu qeyd edərək bu əməkdaşlığın inkişafında maraqlı olduqlarını bildiriblər. Hərbi əlaqələrin inkişafı baxımından hərbi qulluqçuların qarşılıqlı səfərlərinin, həmçinin Azərbaycan-Türkiyə-Qətər birgə hərbi təlimlərinin keçirilməsinin vacibliyi vurğulanıb.

Diplomat isə öz növbəsində dost və qardaş olan Azərbaycanda səfir kimi fəaliyyətə başlamasından məmnun olduğunu, ölkələrimiz arasında əlaqələrin, xüsusilə hərbi sahədə əməkdaşlığın inkişafı üçün səylərini əsirgəməyəcəyini bildirib.

Səfir qeyd edib ki, Qətər ölkəmizin ərazi bütövlüyünü tanıyır, beynəlxalq təşkilatlar və tədbirlər çərçivəsində daim Azərbaycanın haqq işini dəstəkləyir.

Görüşdə hərbi sahədə əməkdaşlığın perspektivləri, regional təhlükəsizlik, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi və qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə edilib.

# Müdafiə Nazirliyi ağacəkmə aksiyasında iştirak edib







*Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın dahi şair və mütəfəkkir İmadəddin Nəsiminin 650 illik yubileyi ilə əlaqədar ölkəmizdə bir gündə 650 min ağacın əkilməsi təşəbbüsünə Azərbaycan Ordusunun birlik, birləşmə, hərbi hissə, xüsusi təyinatlı hərbi təhsil müəssisələri, idarə və təşkilatları da qoşulublar.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, təbiətin qorunmasına töhfə vermək, ekoloji tarazlığın bərpasına və ətraf mühitin mühafizəsinə kömək məqsədilə keçirilən ağacəkmə aksiyasında Müdafiə Nazirliyinin rəhbərliyi də iştirak edib.

Azərbaycan Ordusunun hərbi hissələrində təşkil olunan aksiyada ümumilikdə 70 minədək müxtəlif ağac növləri əkilib.

Ordu quruculuğu

# "Hərbi and içəndə qürurlandığımız qədər qürurlandıq..."

*Azərbaycanda ordu quruculuğu, bu baxımdan şəxsi heyətin döyüş və mənəvi-psixoloji hazırlığı dönməz, zəruri dövlətçilik proseslərindəndir. Döyüş hazırlığı hərbi biliklərin, vərdişlərin aşılanması ilə, müxtəlif miqyaslı təlimlərlə, ideoloji iş və mənəvi-psixoloji hazırlıq üzrə zabitlərin şəxsi nümunəsiylə, ideoloji işin səmərəli təşkiliylə, bu və ya digər mövzuda disputlarla, müzakirələrlə, asudə vaxta müəyyən qədər pedaqoji, didaktik mahiyyət verməklə, əsgər dostluğunun potensialına istinad etməklə formalaşır. Bu vacib amilləri Azərbaycan Prezidentinin, eləcə də Müdafiə nazirinin ön xətdə, səngərlərdə əsgər və zabitlərlə söhbətləri tamamlayır.*



Müdafiə naziri general-polkovnik Zakir Həsənovun bu günlərdə ön xətdə yerləşən "N" hərbi hissəsində əsgər və zabitlərlə söhbətləri tarixləşdi. Bu görüş hərbi qulluqçuların yaddaşında həm də səmimiliyiylə, mahiyyəti etibarilə hərbi xidmətə diqqət və qayğının təzahürü kimi qalacaq. Leytenant Uğur Bayramov da, əsgərlər - İqor Rıskin də, Ramal Mehdiyev də bu təsadüfi həmişə



xoş duyğularla, könül xoşluğuyla xatırlayacaqlar.

Zabit Ceyhun Bağırov yaxşı əsgər amilinə əsaslanaraq əsgər İqor Rıskinin də, əsgər Ramal Mehdiyevin də nümunəvi əsgər olduğunu bildirdi.

- Hər ikisi ali təhsillidir, savadlıdır, hər ikisinin yaxşı nitq qabiliyyəti var, hər ikisi məsuliyyətlidir. Hərbi hissədə keçirilən mədəni-kütləvi tədbirlərdə də fəal iştirak edirlər. Bu və ya digər mövzu ilə bağlı bildiklərini əsgər yoldaşları ilə həvəslə bölüşürlər. Yəni, hər ikisi nümunəvi əsgərdi.

İqor Rıskin Bakı şəhərində anadan olub. Aviasiya Akademiyasının məzunudur. Uçuş mühəndisliyi fakültəsini 2019-cu ildə fərqlənmə diplomu ilə bitirib. Aviasiya Akademiyasını ingilis dilində fərqlənmə diplomu ilə bitirməsi onun savadlılığını təsdiqləyir, söhbətləri, məntiqli, məzmunlu, rabitəli danışığı dünyagörüşünün genişliyini, "Göyləri sevirəm, pilot olacam. Göyləri sevirəm, yeri-torpağı, Vətəni qoruyanların sırasında olmağımla qürurlanıram. Həm də ata-anamın, bacılarımın mənimlə qürurlanmasından da qürurlanıram", - kəlmələri vətənsevərliyini təsdiqləyir.

- Məhz bu hərbi hissədə xidmət etməyim mənim taleyimdir. Taleyimdən, xarakterimdən, özümə məsuliyyətimdən razıyam ki, nümunəvi əsgər olmuşam. Nümunəvi əsgər olduğum üçün mənə nəsib olan qədərsiz könül xoşluğunu son nəfəsəcən unutmayacam. Müdafiə naziri general-polkovnik Zakir Həsənovla eyni masa arxasında nahar etmək, söhbətləşmək - bu duyğuları, - o anları necə yaşadığımı ifadə etməyə çətinlik çəkirəm. İndi də həmin yaddaqalan, xoş anların təsirindəyəm.

İqordan Müdafiə naziriylə söhbətdə müəyyən çəkingənlik hiss edib-etmədiyini soruşdum. Gülümsündü. Bu qürurlu təbəssümü o gözəl təsadüfün könül xoşluğuna yozdum:

- O səviyyədə səmimi münasibətin müqabilində kim olsa az sonra çəkingənliyindən xəcalət çəkərdi. Nazirimizin səmimi sualları da əsgərin hərbi xidmətinə, hərbi xidmətdən sonrakı həyatına diqqət və qayğı idi. Nə gizlədim, hərbi xidmətdən tərxis olunduqdan sonra təhsilimi davam etdirmək, daha mükəmməl biliyə yiyələnmək, mülki aviasiyada işləmək niyyətindəydim. Müdafiə nazirinin böyük sayğılarla "Bəlkə gələcəkdə hərbi xidmətini davam etdirəsən?" - təklifi mənim düşüncələrimi tərpətdi. Deyəsən, hərbçi olacam, mülki aviasiyanın deyil, hərbi aviasiyanın pilotu olacam, - İqorun səsində həm qürur vardı, həm də vətəndaşlıq borcunu sonacan yerinə yetirmək istəyi...

Ramal Mehdiyev Gəncədə anadan olub. Azərbaycan Dövlət Aqrar Universitetinin energetika mühəndisliyi fakültəsini bitirib. Magistr təhsillidir. Aydın düşüncəli əsgərdir. Azərbaycan Ordusunun gücündən, qüdrətindən, 2016-cı ilin Aprel döyüşlərindən, qazanılan qələbədən, Günnüt zəfərindən, azərbaycançılıqdan, Azərbaycan əsgərinin mənəvi dəyərlərimizi müqəddəslik mərtəbəsində yaşatmasından danışdıq. Əsgər Azərbaycan Ordusunun yaranmasının 100 illiyinə həsr olunmuş möhtəşəm paradı, bu paradda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin çıxışını, çıxışından bir kəlamı xatırladı: "Gün gələcək və bu gün işğal altındakı torpaqlar azad olunandan sonra orada qaldırılan Azərbaycan bayrağı Azadlıq meydanına gətiriləcək və hərbi paradda göstəriləcək." Ramal əsgər yoldaşlarının xidmətindən söz açdı, Müdafiə naziri general-polkovnik Zakir Həsənovun hərbi hissədə nahar zamanı onunla söhbət etməsindən də danışdı:

- Hərbi xidmətdə əsgərlərin yadında qalan xoş günlər, xoş anlar çox olur. Hamımız Hərbi andiçmə gününü xidmətdə olduğumuz müddətdə xoş ovqatla xatırlayırıq. Müdafiə naziri general-polkovnik Zakir Həsənovun hərbi hissəmizə gəlməsi, naharda mənimlə də söhbət etməsi yaddaşımdan heç zaman silinməyəcək. Səmimi sorğular əsgərlərin hərbi xidmətiylə maraqlanmaq istəyiydi. Nazirimiz bir daha əmin oldu ki, Azərbaycan Ordusunun şəxsi heyəti xidmət şəraitindən razıdır. Bu şəraitə görə əsgərlər adından Ali Baş Komandana minnətdarlığımı bildirdim.

Nazirimizin sorğuları təkcə hərbi xidmətlə bağlı deyildi, o, şəxsi problemlərimizin olub-olmamasıyla da maraqlandı. Azərbaycan əsgərlərinin bir ümumi problemi var, bu problem Vətənin problemidir. Bu problem



torpaqlarımızın işğaldan azad edilməsidir. Biz Ali Baş Komandanın döyüş əmrinə hazırıq. Biz Ali Baş Komandanın döyüş əmrini qələbəylə tamamlayacağıq, torpaqlarımızı işğaldan azad edəcəyik.

- Azərbaycan əsgərinin döyüş əzmi, qələbə ruhu yaddaqalan naharda da hiss edildi, eləmi?, - soruşdum. Səmimiyyət həmişə reallığın aşkarlayıcısı olub. Əsgər Ramal Mehdiyev səmimi sorğumu səmimiyyətlə cavablandırdı:

- Bəli, bu döyüş əzmi, bu qələbə ruhu bizi Böyük Qələbəyə aparacaq.

Əsgərin bu inamını məmləkə-



timizin, "mən azərbaycanlıyam!" qürurunu yaşayanların hamısının inamı bildim....

Leytenant Uğur Bayramov Naxçıvanda, Şahbuzda anadan olub. H.Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini 2018-ci ildə bitirib.

Əsgərlərin hadisəni təqdim etmə bacarığından bizim kimi gənc leytenant da razı qalmışdı. Sakit təbiətli zabitdən soruşdum ki, əsgərlərin dediklərinə nə əlavə edərdiniz. Leytenant Uğur Bayramov bir də İqora, Ramala baxaraq dedi:

- Mən də həmişə hərbi xidmətimlə qürurlanmışam. İndi həm də zabit olaraq belə əsgərlərlə qürurlanıram. Hərbi hissəmizdə nümunəvi xidmətiylə tanınan əsgər İqor Rıskin, əsgər Ramal Mehdiyev dünyagörüşüylə, nitq qabiliyyətiylə, erudisiyasıyla Müdafiə naziri general-polkovnik Zakir Həsənovun da rəğbətini qazandı. Mənə elə gəlir ki, bu rəğbət hər iki əsgərin gələcək hərbi xidmətində məsuliyyətartırma baxımından əhəmiyyətli olacaq.

Həsəd mənəvi kamilliyə söykənən duyğudur. Ramal da, İqor da bu duyğudan söz açdı.

- Nə vaxtsa həsəd apardığım məqamlar olub. Həsəd "filankəs filan uğura niyə nail oldu?" - kimi yaşanılmır, "o uğura kaş mən də nail olaydım" - istəyiylə yaşanılır. Həmin gün həmin gözəl görüşdə olmasaydım, İqora da, mənim yerimdə kim oturardısa, ona da həsəd aparardım. Belə xoş anları yaşamaq hər əsgərə nəsib olmur, - Ramal belə dedi. Onun fikrini İqor tamamladı:

- Biz bu dünyagörüşlə, bu məsuliyyətlə formalaşdığımıza görə valideynlərimizə, müəllimlərimizə minnətdarıq. Əsgər kimi formalaşdığımıza görə komandirlərimizə bizdən əvvəl xidmət edən əsgər yoldaşlarımıza minnətdarıq, - İqor belə dedi.

Səmimi mükaliməşməni Ramal tamamladı:

- Və bir də bu təsadüfə minnətdarıq...

Bu söhbətin sevincini təkcə leytenant Uğur Bayramov, əsgər İqor Rıskin, əsgər Ramal Mehdiyev yaşamayıb. Bu sevinci hərbi hissənin şəxsi heyəti də yaşayıb. Bu görüş, bu söhbət yaddaqalan olub, hamının yaddaşına, düşüncələrinə hopub. Leytenant Uğur Bayramov onu da dedi ki, hərbi hissənin əsgərləri arasında səmimi dostluq münasibətləri var, bu münasibət səmimi duyğularla qarşılıqlı şəkildə yaşadılır, yaşadılacaq da. Asudə vaxtlarda əsgərlərdən birinin yaxşı düşüncəsi, gözəl düşüncəsi, gərəkli düşüncəsi digərlərinin düşüncələrinə hopur, mənəvi-psixoloji hazırlıqda belə üsulu səmərəli hesab edirik... Belə səmimi söhbətə tarix deyə bilərik. Qışın yaz ovqatlı bir günündə yaşanılan tarix bu ovqatla da yaşadılmalıdı. Əsgərlər bu günü tarix kimi yaşadacaq, böyük sevgilərlə, qürurla yaşadacaqlar. Müdafiə naziri general-polkovnik Zakir Həsənovun "N" hərbi hissəsində əsgərlərlə nahar etməsi, söhbətləşməsi, bu söhbətin məzmunlu mahiyyəti neçə-neçə çağırışçının peşə seçiminə təsir göstərəcək, neçə-neçə əsgər hərbi xidmətdən sonra taleyini ordu ilə bağlayacaq. Bu baxımdan "N" hərbi hissəsində bu söhbətləşmənin də ordu quruculuğunda əhəmiyyətli olacağını güman edirik. Bu güman inama, etibara söykəndiyi üçün reallıqdır...

Əsgərlər həm də dedilər ki, Müdafiə naziri ilə söhbət edəndə Hərbi and içəndə qürurlandığımız qədər qürurlandıq.

**Rəşid HÜSEYNOV,**
**"Azərbaycan Ordusu"**

*Ön xətdən reportaj*

# Qələbə günü ərəfəsindəyik

*Vətənin müqəddəsliyini səngərdə daha dərindən hiss edirsən. Qışın şaxta-boranında, yayın istisində Vətəni müdafiə etməyin verdiyi qürur heç nə ilə əvəz oluna bilməz. O səngərlər ki, Vətənə neçə igid övladlar qazandırıb, o səngərlər ki, neçə şəhidin zirvəyə ucaldığı ünvan olub. Dostluqların möhkəm olduğu məkandır səngər. Səngərdə, döyüş növbətçiliyində əsgər olur, Vətən sevgisi olur, bir də əsgərin silahı. Burada yalnız işğal altında olan torpaqlarımızın azad olunacağı günün döyüşlərində iştirak etmək arzusu var könüllərdə.*





"N" hərbi hissəsindəyik. Zabit Samir Əhmədov əsgərlərimizin döyüş əzmindən, qələbə ruhundan söz açır. "Onların hər biri ayrı-ayrılıqda qəhrəmandır. Əsgərlərimiz deyirlər ki, bu Vətən bizimdir, ona görə də sevgiylə xidmət edirlər." Zabit ordumuzun hazırkı gücü və qüdrəti barədə də söhbət açır. "Zabit və əsgərlərimizin döyüş hazırlığı yüksək səviyyədədir. Müdafiə Nazirliyi rəhbərliyinin tez-tez cəbhə bölgəsinə səfər etməsi, əsgərlərlə səngərlərdə görüşməsi, onların xidmətini layiqincə qiymətləndirməsi əsgərlərin döyüş ovqatını daha da artırır. Həmçinin şəxsi heyətin sosial-məişət şəraiti yaxşılaşdırılır, ordumuzun maddi-texniki təchizatı gücləndirilir. Bunlar şəxsi heyətin döyüş ruhuna və mənəvi-psixoloji hazırlığına öz müsbət təsirini göstərir".

Qışın ilk ayıdı. Hər birimiz bilirik ki, Vətəni müdafiə edənlər üzləşdiyi hava şəraitinə, yerləşdiyi coğrafi mövqenin relyefinə məhəl qoymur, müqəddəs amalla xidmət edirlər.

Səngərlərə gedirik. Mövqe dağlıq ərazidə yerləşir. Aşırımlar sanki kəmər kimi dağların belinə dolanıb.

Zabit Sahib Daşdəmirov döyüş növbəsini dəyişən əsgərləri təlimatlandırır, tapşırıqlarını verir. Ərazi bütövlüyümüzü qoruyan, məsuliyyətli və şərəfli vəzifəni yerinə yetirən əsgərlərlə söhbətləşirik.

2016-cı ildən ordu sıralarında olan zabit bölmənin şəxsi heyətinin döyüş hazırlığının yüksək səviyyədə olduğunu vurğulayır. "Torpaqlarımızın müdafiəsində ayıq-sayıq xidmət aparan əsgərlərimiz müqəddəs borcu yerinə yetirirlər. Döyüş hazırlığının yüksək olması düşmənin törədə biləcəyi təxribatların qarşısının vaxtında alınmasında əhəmiyyətlidir. Bunun üçün zabitlərin üzərinə böyük məsuliyyət düşür. Bölməmizdə xidmət edənlərin bacarıqlı əsgər kimi formalaşması üçün əlimizdən gələni edirik. Düşmən tez-tez atəşkəs rejimini pozmağa çalışsa da, cavab atəşi ilə susdurulur. Bölməmizin zabit və əsgərləri üzərinə düşən vəzifələri məsuliyyətlə yerinə yetirirlər. Şəxsi heyət Ali Baş Komandanın döyüş əmrinə hər an hazırdır".

Zabit müasir ordu quruculuğundan, ümummilli lider Heydər Əliyevin, onun siyasi kursunu uğurla davam etdirən Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin xidmətlərindən danışır. "Özünün yüksək inkişaf mərhələsini yaşayan ordumuzun daha da gücləmnməsi üçün ciddi islahatlar aparılır. Sosial rifahı yaxşılaşdırılan hərbçilərimiz daha məsuliyyətlə xidmət edirlər."

Döyüş növbətçiliyindən yenicə qayıdan əsgər Həsən Mürşüdov ilə söhbətləşirəm. "Bura gəldiyim ilk gündən qayğıkeş komandirlərimin və xidmət yoldaşlarımın mənə göstərdikləri diqqəti hiss etdim. Vətənə müqəddəs borcumuzu yerinə yetiririk. Düşməni müşahidə edəndə işğal altında olan torpaqlarımıza baxıram və onlara nifrətim artır. Arzum budur ki, torpaqlarımızı işğaldan azad edəcəyimiz döyüşdə mən də iştirak edim".

Əsgər Elnur Hüseynov deyir: "Hərbi xidmətə yollanarkən valideynlərimə və dostlarıma Vətənimə layiqli əsgər olacağıma söz vermişəm. Vətənə sədaqət andı içmişəm ki, Vətən üçün lazım gələrsə, canımı əsirgəməyəcəm. Torpaqlarımızı göz bəbəyimiz kimi qoruyacağıq. Səngər qəhrəmanlar məskənidir. Mübariz, Samid, Çingiz və minlərlə qəhrəmanların da ruhu bizdən bunu tələb edir. Səngər bizim Böyük Qələbə yolunda müvəqqəti dayanacağımızdır. Keçdikləri döyüş yolu hər birimizə nümunə olan qəhrəmanlarımızın davamçıları olacağıq".

Əsgər Ənvər Qasımov səngərdə xidmətin verdiyi qürurdan danışır. "Xidmətə çağırılmamışdan əvvəl tərxis olunan dostlarımla əsgərlikdən söhbətlər edirdik. Həqiqi hərbi xidmətə gəldiyim gün yaxınlaşdıqca, bu söhbətlər daha da artırdı. Bu gün çox sevincliyəm ki, düşmənlə təmas xəttində Vətənimin müdafiəsindəyəm. Əsgər kimi öz üzərimə düşən vəzifəni dərindən dərk edir, komandirlərimin verdiyi əmr və göstərişləri məsuliyyətlə yerinə yetirirəm, tövsiyə və məsləhətləri dinləyir, onlara əməl edirəm. Səngərdə xidmət edən əsgər bilir ki, buranın şaxtası-boranı olsa da, Vətən sevgisi havanın soyuqluğunu hiss etdirmir".

Əsgərlərdən Mirabbas Şəriflinin, Murad Süleymanovun və Qədir İsmayılovun hər sözündən, söhbətindən vətənpərvərlik ruhu hiss edilir: "Ali Baş Komandanımızın əmri ilə torpaqlarımızı işğaldan azad etməyə tam hazırıq."

Əsgərlərin gözlərindəki məğrurluğu, sözlərindəki əminliyi bir inamın təzahürü bilirəm: işğalın sonuna az qalıb!..

Qələbə günü ərəfəsindəyik!..

**Baş leytenant**
**Fuad CƏFƏROV,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

## ATƏT-in Minsk Qrupuna daxil olan həmsədr ölkələrin nümayəndə heyətlərinin rəhbərləri bəyanat yayıblar

*ATƏT-in Minsk Qrupuna daxil olan həmsədr ölkələrin nümayəndə heyətlərinin rəhbərləri ATƏT Nazirlər Şurasının 26-cı iclası ərəfəsində Azərbaycan və Ermənistan Xarici İşlər nazirlərinin Bratislavada keçirilən görüşləri ilə bağlı birgə bəyanat yayıblar.*

Nümayəndə heyətlərinin rəhbərləri təmas xətti və beynəlxalq sərhədlərdə güc tətbiqinin nisbətən azalmasını müsbət məqam kimi qəbul edərək, tərəflərin gərginlik riskinin qarşısını almaq üçün birbaşa kommunikasiya imkanından istifadə etmələrini yüksək qiymətləndiriblər. Onlar gərginliyin azaldılması və əhalinin sülhə hazırlanması üçün ötən il atılan konkret addımları alqışlayıblar.

Həmsədr ölkələrin təmsilçiləri münaqişə tərəflərinin Xarici İşlər nazirlərinin Minsk qrupunun himayəsi altında gələn ilin əvvəlində yenidən görüşə dair razılığa gəlmələrini yüksək qiymətləndiriblər.

Bəyanatda vurğulanıb ki, hazırkı status-kvo qəbuledilməzdir. Onlar tərəfləri şərtlər yaratmadan substantiv danışıqlar aparmağa çağırıblar.

Yekunda qeyd edilib ki, ATƏT-in Minsk Qrupu formatı münaqişənin davamlı həlli üçün səylərlə bağlı imtinaedilməz format olaraq qalır.

## Əlahiddə Ümumqoşun Orduda mühəndis texnikalarının növbəti hissəsi silahlanmaya daxil edilib



Əlahiddə Ümumqoşun Orduda mühəndis təminatı işinin daha da yaxşılaşdırılması məqsədi ilə Türkiyə Respublikasının istehsalı olan mühəndis texnikalarının növbəti hissəsi silahlanmaya daxil edilib.

Araz çayı üzərindəki "Ümid" körpüsündən keçən Türkiyə Respublikasının HİDROMEK şirkətinin istehsalı olan təkərli və tırtıllı yükləyici, ekskavator və qreyderlər, eləcə də onların ehtiyat hissələri xüsusi daşıma vasitələri ilə Naxçıvan Muxtar Respublikasına gətirilib.

Mühəndis texnikalarının silahlanmaya daxil edilməsi münasibəti ilə Əlahiddə Ümumqoşun Ordunun hərbi hissəsində mərasim keçirilib.

Mərasimdə hərbi hissənin zabiti Ramil Dadaşov və HİDROMEK şirkətinin nümayəndəsi Murad Armağan Azərbaycan ilə Türkiyə arasında mövcud olan hərbi sahədəki yüksək səviyyəli əməkdaşlıqdan danışıblar. Bildirilib ki, yeni texnikaların silahlanmaya qəbul edilməsi mühəndis təminatı bölmələrinin texniki imkanlarının gücləndirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir.

Çıxışların ardından texnikaları gətirmiş heyətə Əlahiddə Ümumqoşun Ordu Komandanlığı tərəfindən qiymətli hədiyyələr təqdim edilib.

**Leytenant**
**Nəriman NƏCƏFOV,**
**"N" hərbi hissəsi**

# "Ağ ölüm"ün qara bəlaları

*Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzində "Narkomaniya və sərxoşluğa yox deyək!" devizi altında dəyirmi masa keçirildi. Dəyirmi masanın təşkil olunmasında əsas məqsəd ölkə Prezidenti İlham Əliyevin "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019-2024-cü illər üçün Dövlət Proqramı" haqqında sərəncamından irəli gələn məsələlərin Azərbaycan Ordusunda həyata keçirilməsidir.*





Tədbirdə mövzu ilə bağlı mütəxəssislər - Müdafiə Nazirliyinin aidiyyəti idarələrinin, xüsusi təyinatlı təhsil müəssisələrinin nümayəndələri, zabitlər, əsgərlər, kursantlar və başqa qonaqlar iştirak etdilər.

"Narkomaniya və sərxoşluğa yox deyək!" devizi altında keçirilən dəyirmi masada mütəxəssislərin geniş məruzələri dinlənildi.

Tədbirin aparıcısı H.Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin zabiti leytenant Günel Dadaşova başəriyyətin ən qorxulu bəlalarından olan narkomaniya və sərxoşluqdan söz açaraq günümüzün ən aktual mövzusu kimi daim diqqət mərkəzində saxlanılmalı olduğunu dedi: "Əfsuslar olsun ki, bu gün narkotik maddələrin aludəçilərinin əksəriyyəti gənc nəslin nümayəndələridir. Bunun sonunda dayanan faciəni isə təsəvvür etmək belə qorxuncdur. Gənclər hər bir millətin gələcəyi, dövləti inkişaf etdirən əsas sütundur. Azərbaycanda sosial sabitliyin təmin edilməsi, insanların sağlamlığının, rifahının və mənəvi-əxlaqi dəyərlərinin qorunması məqsədilə narkomanlığa, narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizə ümumdövlət vəzifəsi kimi müəyyən edilib".

İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsinin bölmə rəisi polkovnik Həbib Məmmədov mövzunun aktuallığını nəzərə çatdıraraq bildirdi ki, yaşadığımız həyat bəşər övladının ölümünün müxtəlif səbəblərdən gerçəkləşdiyini artıq bizə sübut edibdir. "Müharibələr, yoluxucu xəstəliklər, avtomobil qəzaları, qətl hadisələri, intihar halları, təbii fəlakətlər, bəzi ölkələrdə hökm sürən aclıq və s. bu kimi amillərin sırasındadır. Son illər sadalananların sırasına "ağ ölüm" adlandırdığımız narkomaniya da əlavə olunub. Narkomaniya birbaşa intihar halı olmasa da, onun insanları tədricən məhv etdiyi, ölümə sürüklədiyi inkaredilməzdir."

Artıq uzun müddətdir, narkomaniyanın müasir cəmiyyətin ən çox rastlaşdığı və müzakirə etdiyi problemlərdən biri olduğunu deyən polkovnik təəssüflə bildirdi ki, "ağ ölüm" adlandırılan bu bəlanın qurbanları bütün dünyada durmadan artır. "Bu öldürücü maddənin pəncəsindən gec də olsa yaxa qurtarmağa çalışanlar tapılsa da, atılan addım hər zaman müsbət nəticə vermir. Çünki narkotik maddələrdən imtina etmək üçün insan güclü iradəyə malik olmalıdır."

Bölmə rəisi məruzəsində narkomaniyaya qarşı görülən dövlət tədbirlərindən və bu istiqamətdə orduda aparılan fəaliyyət planından da danışaraq qeyd etdi ki, Azərbaycan Respublikası Müdafiə Nazirliyində Azərbaycan Respublikası Prezidentinin 22 iyul 2019-cu il 1334 saylı Sərəncamı ilə təsdiq olunmuş "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi və narkomanlığa qarşı mübarizəyə dair 2019-2024-cü illər üçün Dövlət Proqramı"nı rəhbər tutaraq illik fəaliyyət planı hazırlanıb, aidiyyəti dövlət orqanları, ictimaiyyət, Qeyri-Hökumət Təşkilatları və kütləvi informasiya vasitələri ilə birlikdə bu fəaliyyət planının yerinə yetirilməsi istiqamətində Azərbaycan Ordusunda birlik, birləşmə, hərbi hissə, xüsusi təyinatlı təhsil müəssisələrində, müəssisə və təşkilatlarda bir sıra tədbirlər həyata keçirilib. "Hərbi hissə və bölmələrin komandirləri, xüsusi təyinatlı təhsil müəssisələrinin rəisləri, müəssisə və təşkilatların rəhbərləri müvafiq strukturlarla birlikdə bu işi daim nəzarətdə saxlayır, kompleks qabaqlayıcı profilaktik tədbirlər həyata keçirirlər. Ordu gəncləri arasında sağlam həyat tərzinin təbliğ olunması, narkomanlığın fəsadları haqqında gənclərdə düzgün təsəvvürün formalaşması, ictimaiyyətin diqqətinin narkomanlıqla bağlı problemin həllinə cəlb olunması məqsədilə "ağ ölüm"lə mübarizəyə dair müxtəlif mövzularda təlim-metodiki məşğələlər, tərbiyəvi iş saatları, konfranslar, dəyirmi masalar, seminarlar təşkil olunub və maarifləndirmə tədbirləri həyata keçirilib."

Tibb Baş İdarəsinin şöbə rəisi polkovnik Firudin Nəsibov məruzəsində narkotik maddələrin qrupları, narkomanlar arasında yaranmış xəstəliklər, narkomaniyanın müalicə üsulları, tibbi nöqteyi-nəzərdən sağlam həyata dönüşün yolları haqqında geniş və ətraflı məlumatları tədbir iştirakçılarının diqqətinə çatdırdı.

İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsinin dövlət qulluqçusu İlqar Orucov məruzəsində narkomaniyanın tarixindən, "ağ ölüm"ün qara bəlalarından, narkomaniya xəstəliyinə düçar olanların xarici əlamətlərindən, narkomaniyanın yaranma səbəblərindən, cəmiyyətin bu qorxunc bəladan necə qurtarmasından və ona qarşı mübarizə yollarından geniş bəhs etdi.

Tədbir iştirakçıları Silahlı Qüvvələrin Hərbi Akademiyasının dosenti polkovnik Füzuli Abbasovun, Loqos Psixoloji və Nitq İnkişaf Mərkəzinin Klinik psixoloqu Şahin Əliyevin və digərlərinin mövzu ilə bağlı dəyərli fikirlərini, tövsiyə və çıxışlarını maraqla dinlədilər.

Dəyirmi masada hər bir məruzədən və çıxışdan sonra geniş diskussiya quruldu, müzakirələr aparıldı, zabit, əsgər və kursantların fikirləri dinlənildi, mütəxəssislər verilən sualları cavablandırdılar.

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**

*Gənc zabitlərimiz*

# "Valideynlərimin qürurlu baxışlarını unutmaram"



Erkən yaşlarından hərbçi olmağı qarşısına məqsəd qoyan şəxslərdə Vətən sevgisi yüksək olur və onlar mənəvi dəyərlərə sədaqət ruhunda böyüyürlər. Peşəsinə ürəkdən bağlı olan və nümunəvi xidmət edən bacarıqlı zabitlərimizə hər addımda rast gəlirik. Belə vətənpərvər oğullardan birini ön xətdə yerləşən hərbi bölmədə tanıdım. Tabeliyindəki əsgərlərlə burada yurd salan igidlər düşmən qarşısında inamla dayanırlar. Mövqelərimizi göz bəbəyi kimi qoruyanlarla, düşməni daim nəzarətdə saxlayanlarla birlikdə xidmət edən leytenant Xatir Soltanlıdır. Hərbçi peşəsinə olan həvəsi onu İsmayıllı rayonundan Bakıya C.Naxçıvanski adına Hərbi Liseyə gətirib. 2014-cü ildə hərbi təhsilini Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində davam etdirib. Təhsil aldığı illərdə həmişə öyrənməyə, hərbi biliklərini artırmağa səy göstərib. Ali Hərbi Məktəbdə təcrübəli zabit və müəllimlərdən çox verdişlər öyrənib, ən əsası isə zabit peşəsinin şərəfli və məsuliyyətli olduğuna bir daha inanıb. Xalqa, Vətənə, dövlətçiliyə sevgisi, milli-mənəvi dəyərlərimizə bağlılığı olanlar hərbçi peşəsini seçirlər. Xatir ali hərbi təhsil ocağından məzun olduğu gündən danışdı:

- O gün həyatımın, gənclik illərimin ən əlamətdar günü idi. Valideynlərimin önündə yüksək rütbəli zabit mənə diplom təqdim edərkən sevincdən gözlərim dolmuşdu. Bir yandan uşaqlıq arzuma çatmağın sevinci, bir yandan valideynlərimin qürurlu baxışları heç zaman yadımdan çıxmayacaq...

İnsanı yaşadan həyatı gözəlləşdirən arzularıdır. Yazıçı Varisin "Sonuncu ölən ümidlərdir" adlı romanını xatırlayıram. Həmin kitabda da insanın arzuları üçün yaşadığı və arzuların insan taleyinə necə güclü təsir göstərməsi əks olunub...

Gənc zabit düşüncələrinə sarılıb orta məktəb illərindən, peşə seçimindən, hazırkı vəzifələrindən danışdı. "Orta məktəbi yaxşı qiymətlərlə oxuyurdum. Bir gün atam gələcəkdə hansı sənətin sahibi olmaq istəyimi soruşdu. Zabit olacağımı dedim. Saçlarıma sığal çəkdi, xeyir-dua verdi. İndi bu yüksəkliklərdə vətənsevər əsgərlərin komandiri olduğum üçün özümü xoşbəxt sanıram. Təyinatla cəbhə bölgəsinə göndərilən andan özümə söz vermişəm ki, etimadı doğruldacam, ilk gündən məsuliyyətli, tələbkar olacam. Ən başlıca məqsədim tabeliyimdə olanları bacarıqlı, vətənpərvər, dövlətə və ordumuza bağlı əsgərlər kimi formalaşdırmaqdır."

Gənc zabit Xatir Soltanlı kimi bacarıqlı, vətənpərvər, savadlı komandirlərlə əsgərləri də qürurlanır, biz də...

**Leytenant**
**Mahmud MÖHBALIYEV,**
**"Azərbaycan Ordusu"**

# Bratislavada Azərbaycanın və Ermənistanın Xarici İşlər nazirlərinin görüşü keçirilib

*Azərbaycan və Ermənistan Xarici İşlər nazirlərinin ATƏT-in Minsk Qrupunun həmsədrlərinin vasitəçiliyi ilə, ATƏT Nazirlərinin Bratislavada keçirilən iclası çərçivəsində baş tutan və üç saat yarımdan çox davam edən görüşü zamanı tərəflər geniş müzakirələr aparıblar.*

Bu barədə AZƏRTAC-a Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən məlumat verilib.

Məlumatda qeyd olunur ki, görüşdə tərəflər münaqişənin həlli ilə bağlı mövcud vəziyyəti və onun gələcəkdə sülh yolu ilə həlli istiqamətləri ətrafında müzakirələr aparıblar. Nazirlər danışıqların davam etdirilməsi və gələn ilin əvvəllərində növbəti görüşün keçirilməsi barədə razılığa gəldilər.

Asudə vaxt

# Asudə vaxt mənəvi-psixoloji hazırlıqda vasitədir

*Hərbi hissələrdə günün nizam qaydasına uyğun olaraq, dərs prosesləri bitdikdən sonra gün ərzində əsgərlərin asudə vaxtlarını səmərəli keçirmələri üçün hər cür şərait yaradılır. Asudə vaxt şəxsi heyətin hərtərəfli inkişafı, fiziki, mənəvi və estetik mədəniyyətini, dünyagörüşünü yüksəltmək üçün əsas vasitədir. Hərbi hissələrdə asudə vaxtı səmərəli təşkil etmək üçün məqsədyönlü işlər görülür. İdeoloji otaqlar və istirahət guşələri yaradılır. Asudə vaxtlarında əsgərlər qəzet və jurnallardan hərbi biliklərini artırır, bədii kitablar oxuyur, televiziya verilişlərini, tariximizdən bəhs edən filmlər izləyir, dama, şahmat kimi stolüstü oyunları oynayırlar.*



Düşmənlə təmas xəttində yerləşən "N" hərbi hissəsində də asudə vaxt səmərəli təşkil edilir. Yataqxananın istirahət otağında əsgərlər arasında maraqlı oyun gedirdi. Əsgərlər Şahlar Feyziyev ilə Rəşad Həşimov, Pərviz Kazımov ilə Azad Quliyev dama oyununda qalib adı uğrunda mübarizə aparırdılar. Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Şahin Sərdarlı bildirdi ki, zabit və gizirlərimiz də asudə vaxtlarını burada keçirirlər. "Əsgərlərlə birgə televiziya proqramlarını izləyir, radio dinləyir, söhbət edirik. Bu gün isə əsgərlərimiz arasında gərgin mübarizə şəraitində keçən dama oyununu izləyirəm. Əsas istəyirik ki, vaxtımız səmərəli keçsin, yaddaşımızda xoş xatirələr yaratsın."

- Asudə vaxtın düzgün təşkili gənclərin fiziki, psixoloji və şəxsi keyfiyyətlərinin formalaşmasına və inkişafına kömək edir, təhsilə və biliyə marağı artırır. Onların şəxsiyyət kimi formalaşmasında mühüm əhəmiyyət kəsb edir. Şəxsi heyətin asudə vaxtının maraqlı təşkili həm də əsgərlərin dostluq münasibətlərini möhkəmləndirir. Əsgərlərə öz vaxtına düzgün və səmərəli nəzarət etmə duyğusu aşılanır ki, sabah həyatını, taleyini düzgün qurmaqda çətinlik çəkməsinlər.

Oyun bitdi. Əsgər Şahlar Feyziyev yaradılan şəraitdən razılığını bildirdi. "Yuxarı komandanlığa minnətdarıq ki, bizim üçün belə şərait yaradılıb. Asudə vaxtlarımız səmərəli keçir. Kitab və jurnallar oxuyur, oyunlar oynayır, eyni zamanda, xəbərləri, vətənpərvərlik mövzusunda filmləri izləmək imkanı qazanırıq. Televiziya və "Azərbaycan Ordusu" qəzetinin köməkliyi ilə istər ölkəmizdə, istərsə də beynəlxalq aləmdə baş verən hadisələrdən xəbər tuturuq. Hərbi verilişlərə maraqla baxırıq. Bunlar döyüş ruhumuzu, vətənpərvərlik hisslərimizi daha da artırır. Ali Baş Komandanın döyüş əmriylə Aprel qələbəsini və Günnüt zəfərini daha Böyük Qələbəylə tamamlayacağıq. Əsgər Rəşad Həşimov əsgər yoldaşının sözlərinə qoşularaq əlavə etdi ki, asudə vaxtımızın müəyyən bir hissəsini şəxsi inkişafımıza, dünya görüşümüzün artırılmasına, sağlamlığımıza, fiziki inkişafımıza sərf edirik. Bu inkişaf həm də mənəvi-psixoloji hazırlığımız üçündür.

**Baş leytenant**
**Orxan HÜSEYNLİ,**
**"Azərbaycan Ordusu"**

# Ermənistan ordusunda kriminal hadisələr

İşğal edilmiş ərazilərimizdə yerləşdirilən Ermənistan silahlı qüvvələrinin bölmələrində hərbçilər arasında alçaltma, fiziki və cinsi təzyiqlərə məruz qalma, özbaşınalıq nəticəsində baş verən cinayət hadisələrinin sayının durmadan artmasının bir səbəbi də cinayətkarların orduya yol tapmasıdır.

Xarici ölkələrdə cinayət əməli törətmiş yüzlərlə erməni məsuliyyətdən yayınmaq məqsədilə məhz ordu sıralarında gizlənir. Əvvəllər cinayət törətmiş əsgərlər, müqaviləli hərbi qulluqçular, hətta zabitlər barədə dəfələrlə məlumatlar yayılıb. Bu günlərdə daha bir belə fakt məlum olub.

Belə ki, 2019-cu ilin yayında Ermənistandan hərbi xidmətə çağırılan və hazırda işğalçı ordunun 6-cı dağ atıcı alayında xidmət edən Conin Yeremyan Rusiya Federasiyasında cinayət törədib. Məsuliyyətdən yayınmaq məqsədilə o Rusiyadan qaçaraq Ermənistan ordusuna "pənah" gətirib.

**Hazırladı:**
**İsa ELDAROĞLU**

Yeni kitablar

# Azərbaycan Xalq Cümhuriyyətinə həsr edilən tədqiqat əsəri

Ehtiyatda olan polkovnik, tarix üzrə fəlsəfə doktoru Lətif Şüküroğlunun "Azərbaycan Xalq Cümhuriyyəti dövründə ordu quruculuğu" kitabı Cümhuriyyət Ordusunun yaranması və formalaşması tarixinə, ordu quruculuğu sahəsində görülmüş işlərə, bu mühüm və taleyüklü prosesin dövlət tərəfindən necə qurulmasına həsr edilib. Kitabda, həmçinin Qarabağda, Zəngəzurda və ölkəmizin qərb sərhədlərində erməni təcavüzünün qarşısının alınmasından, Cənub bölgəsində Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyətindən, ordumuzun cəsur, vətənpərvər zabit və əsgərlərindən bəhs olunur.

Ordu quruculuğu çətin və mürəkkəb bir prosesdir. Azərbaycan Xalq Cümhuriyyəti dövründən ordu quruculuğu prosesinin öyrənilməsi vacib və gərəklidir, həm də bugünkü ordu quruculuğu üçün də böyük əhəmiyyətə malikdir.

Müəllif Azərbaycan Xalq Cümhuriyyəti Ordusunun yaranması və formalaşmasını ümumiləşdirmiş, arxiv sənədlərində və dövri mətbuatda öz əksini tapmış obyektiv faktlara istinad etmişdir.

Kitabda Müsəlman Korpusunun yaradılması, Cümhuriyyət rəhbərliyi tərəfindən Si-




lahlı Qüvvələrin formalaşdırılmasında ardıcıl və planlı fəaliyyət, uğurlu Qarabağ əməliyyatları, bolşevik təcavüzünə qarşı mübarizə ətraflı araşdırılmışdır. Türk ordusunun Cümhuriyyətin müdafiəsində danılmaz rolu, Qafqazda və Azərbaycanda həyata keçirdiyi geniş döyüş fəaliyyətinə də kitabda xüsusi yer verilmişdir.

Azərbaycan Xalq Cümhuriyyətinin qurulmasında əvəzsiz xidmətləri olmuş Fətəli xan Xoyski, Nəsib bəy Yusifbəyli, Azərbaycanın ilk Hərbiyyə naziri, tam ordu generalı Səməd bəy Mehmandarov, "rus artilleriyasının allahı" Əlağa Şıxlinski, Xosrov bəy Sultanov, Azərbaycan Ordusunun ilk qərargah rəisi Həbib bəy Səlimov, general Süleyman bəy Əfəndiyev, general Əbdülhəmid bəy Qaytabaşı, general Murad Gəray Tlexas kimi tarixi şəxsiyyətlərin, hərb xadimlərinin həyat və fəaliyyətləri də kitabda maraqlı və yaddaqalan faktlarda öz əksini tapmışdır.

Tədqiqat işində zəngin arxiv materiallarından, sənədlərdən, Cümhuriyyət Ordusunda xidmət etmiş hərbçilərin memuarlarından və s. mənbələrdən istifadə olunmuşdur. Lətif Şüküroğlunun uzun müddət Silahlı Qüvvələrlə bağlı analitik təhlillər aparması, şübhəsiz, belə bir sanballı və qiymətli əsərin işıq üzü görməsiylə nəticələnmişdir. Kitab, müəyyən mənada, gələcək tədqiqatlar üçün də istiqamətverici mənbə ola bilər.

Lətif Şüküroğlunun "Azərbaycan Xalq Cümhuriyyəti dövründə ordu quruculuğu" kitabı Silahlı Qüvvələrimizin xüsusi təyinatlı tədris müəssisələrinin kursantları, dinləyiciləri, müəllimləri, o cümlədən hərbi-elmi tədqiqatlar üçün dəyərli vəsait olacaq.

**Bayram MƏMMƏDOV,**
**istefada olan polkovnik-leytenant,**
**Silahlı Qüvvələrin Hərbi Akademiyasının müəllimi**

# Xəbərlər: hadisələr, faktlar

## İraqdan qaçan 5 terrorçu Türkiyəyə təslim olub



Türkiyə hökumətinin həyata keçirdiyi çoxistiqamətli antiterror əməliyyatları yüksək nəticələr verməkdədir.

Belə üsullardan biri də terrorçuların təslimçiliyi yolu ilə onları cinayətkar təşkilatlardan ayırmaqdır.

Milli Müdafiə Nazirliyinin məlumatına görə, İraqın şimalındakı düşərgələrindən qaçan 5 PKK terrorçusu Silopi bölgəsinə keçərək Türkiyənin təhlükəsizlik orqanlarına təslim olublar.

Qeyd edək ki, terrorçulara qarşı tətbiq olunan güc PKK daxilində çaxnaşma yaradıb. Bu amil, o cümlədən aparılan təbliğat işləri sayəsində çoxlu sayda terrorçu PKK düşərgələrindən qaçaraq təslim olub.

## ABŞ Suriyanın şimalından qoşunların çıxarılmasını başa çatdırıb



Birləşmiş Ştatlar Suriyanın şimal-şərqindən qoşunların ixtisarı və yenidən dislokasiyası prosesini başa çatdırıb.

ABŞ-ın Müdafiə naziri Mark Esper bu barədə Reuters agentliyinə müsahibəsində deyib. Onun sözlərinə görə, Suriyada cəmi 600 amerikalı hərbçi qalacaq. Mark Esper avropalı müttəfiqlərin regiona əsgər göndərəcəyi təqdirdə amerikalı hərbçilərin sayının daha da azaldılacağını istisna etməyib.

Xatırladaq ki, oktyabr ayında Prezident Donald Tramp Suriyanın şimalında Türkiyə ordusunun əməliyyat keçirdiyi rayondan ABŞ qoşunlarının çıxarılacağını bəyan edib. Lakin Vaşinqton ərəb respublikasının şimal-şərqindəki neft yataqları üzərində nəzarəti əlində saxlamaq niyyətindədir.

Həmin vaxtdan bəri Suriyadakı amerikalı hərbçilərin sayı 40 faiz - 1000 nəfərdən 600 nəfərə qədər azaldılıb.

## Növbəti illərdə ATƏT-ə sədrlik edəcək ölkələrin adları müəyyənləşib

ATƏT Nazirlər Şurasının Bratislavada keçirilən 26-cı iclasında növbəti illərdə ATƏT-ə sədrlik edəcək ölkələrin adları müəyyənləşib.

Növbəti il ATƏT-ə sədrlik edəcək Albaniyanın ardınca 2021-ci ildə İsveç, 2022-ci ildə isə Polşa bu təşkilata sədrliyi qəbul edəcək.

İsveçin Xarici İşlər naziri Ann Linde ölkəsinin sədrliyə namizədliyini əsaslandırarkən bildirib ki, bu qərarı diplomatiyanın təhlükəsizliyi təmin etmək üçün ən yaxşı yol olduğuna inandıqlarına görə veriblər.

## İranda hərbi hissələrə hücum edən şəxslər həbs olunub



İranda benzinin qiymətinin artırılması ilə əlaqədar ölkənin bəzi şəhərlərində keçirilən kütləvi etiraz aksiyaları zamanı hərbi hissələrə və polis idarələrinə hücumlar olub.

Bu kimi cinayətlərdə iştirak etməkdə şübhəli bilinən 80 nəfər həbs edilib. Onların bir neçəsinin xarici dövlətlərin xüsusi xidmət orqanları ilə əlaqəli fəaliyyət göstərərək müvafiq göstərişlər aldıqları ehtimal olunur. Bu göstərişlərə əsasən, öyrədilmiş adamlar iğtişaşlar zamanı hərbi hissələrə daxil olub partlayış törətməli və İran ordusunun zəifliyini göstərməli idilər. Həmin şəxslər hərbi hissələrə daxil olmağa cəhd etsələr də, onların qarşısı alınıb. Onlar təhlükəsizlik kameraları vasitəsilə müəyyən olunaraq həbs ediliblər.

**AZƏRTAC-ın materialları əsasında**

## İstiqlal marşı

Göz açdığım qədim torpaq,
Dayağımsan sən dünyada.
Doğma anam, ey mehriban,
Ey qəhrəman, Azərbaycan!

Addım-addım qucağından
Odlu sellər çağlasa da,
Həsrət qaldın sən işığa,
Zaman-zaman, Azərbaycan!

Yadellilər damla-damla
Al qanını sordu sənin,
Kimlər sənin göz dikmədi
Torpağına, Azərbaycan!

Bayrağını endirdilər,
Ancaq özün əyilmədin,
Alqış bu gün o ucalan
Bayrağına, Azərbaycan!

Səhər kimi cavan sənsən,
Tarix kimi qoca sənsən.
Fatehləri diz çökdürən
Vüqarımsan, Azərbaycan!

Öz müqəddəs dağlarından
Günəş kimi uca sənsən,
Yer üzündə mənim Odlar
Diyarımsan, Azərbaycan!

Səhərlərin qoy açılsın,
Təzə nurlu bahar ilə,
Gələcəyə mərd addımla,
Uğurla get, Azərbaycan!

Şəhidlərin al qanından,
Lalə açmış yollar ilə,
İstiqlalın sabahına
Qürurla get, Azərbaycan!

## Dərələr

Çinarlar qatar-qatar,
Qalxıb zirvəyə çatar...
Dağa qısılıb yatar
Mışıl-mışıl dərələr,
Yaşıl-yaşıl dərələr.

Sizlərə vurğunam mən,
Bəzəyiniz şəfəqdən...
Günəş çıxar üfüqdən
Ovuc-ovuc zər ələr,
Dərələr!..

Sevdiyiniz ağaclar
Küknarmıdır, şammıdır?!
Sizdən qalxan dumanlar
Dağlara salammıdır?!

Quş kimi üstünüzdən,
Qanad çalım dərələr!
Şamlıqda bir axşamlıq,
Qonaq qalım, dərələr!

Əgər ki, yıxılsam çinar göstərin,
Mən ona söykənib arana baxım.
Gözlərim görməsə Göy gölü verin,
Mən onun özüylə cahana baxım.
Hər yerdə, həmişə sənsən gümanım.
Canım-gözüm mənim, Azərbaycanım!

Sən günəş, mən isə bir zərrə kimi
Diriykən oğlunam, ölsəm torpağın.
Sən ki, döyündürdün mənim qəlbimi,
Sən uca çinarsan, mənsə yarpağın,
Mənəm sənin özün, ey eşqim, canım,
Sənsən özüm mənim, Azərbaycanım!

Sizlərdən yollar keçər,
Siz yaxşı ki, varsınız,
Dərələr!..
Zirvələrə açılan
Geniş qapılarsınız,
Dərələr!..

*Könlüm şeir istəyir*

# Dəniz, göy, məhəbbət

*Dəniz, göy, məhəbbət ifadələrini ümumiləşdirən nədir? - ürəkdi, hər üçü duyumla, insanın mənəvi aləmi ilə bağlıdı. İnsan dənizin sahilə sığal çəkən dalğalarını sevir, göylərin yerlərə sədaqətini, gündüzlər Günəşini, gecələr Ayını, ulduzlarını sevir...*

*Xalq şairi Nəbi Xəzrinin yaradıcılığında vətənpərvərlik də, vətənpərvərliyin ifadə vasitəsi olan təbiət də, sevgi də, eyni ilhamla şeirə gətirilib. Bu şeirlər həm məzmunu, mahiyyəti, həm də lirizmi ilə səciyyəvidir - dənizi, göyü, məhəbbəti, - Azərbaycanı tərənnüm edir.*

**"Azərbaycan Ordusu"**

## Dəniz, göy, məhəbbət

- Dənizi hədiyyə verirəm sənə…
Mən dedim, sən baxdın, sən gülümsədin.
Göylərin şəfəqi düşdü üzünə.
- Mən isə… göyləri verirəm, - dedin…

Ayrıldıq qəribə hədiyyələrlə,
Göylər eşqim kimi mənə əzizdir.
Ayrıldıq dənizlə, ağ ləpələrlə,
Necə aparasan? Dəniz dənizdir.

Dənizi verdim ki, sənə hədiyyə,
Gəldiyim sahilə gələsən bir də.
Məni görməyəndə o mənəm - deyə,
Mənimlə danışıb, güləsən bir də.

- Əgər görüşməsək, bizə dağ olar,
Dedim, necə dəfə belə dedim mən.
Dəniz sahilinə qayıtmaq olar,
Göylərin sahili varmı, gedim mən?!

Düşündüm, ayrıldıq gələndən bəri,
Sən mənim eşqimə çıraq olasan.
Onunçün verdinmi mənə göyləri,
Məndən göylər qədər uzaq olasan?!

II

Mən bir dənizəm ki, eşqim səhərdir,
Səni düşünürəm, əzizim, yenə.
Mənim dalğalarım xatirələrdir,
Qoy çatsın qəlbinin sahillərinə.

Əsl məhəbbət ki, böyük hünərdir,
Coşar ümman kimi təzə arzular.
Mənim dalğalarım xatirələrdir,
Orda tufan da var, burulğan da var.

Dənizəm, eşqimdən qaçmaq hədərdir,
Mən ki, adlayıram çölü, çəməni.
Mənim dalğalarım, xatirələrdir,
Gecə də, gündüz də tapacaq səni.

III

İstəsən yuxuna gələrəm sənin,
gələrəm dəniz kimi.
Üzünə incilər çilərəm sənin,
çilərəm dəniz kimi.

Yoluna şəfəqlər səpərəm hərdən
səpərəm dəniz kimi.
İstəsən üzündən öpərəm hərdən,
öpərəm dəniz kimi.
Adını qəlbinin sahillərinə
yazaram dəniz kimi,
"Sevirəm" söyləsən bir axşam mənə,
Susaram dəniz kimi,
Susaram dəniz kimi.

IV

Dünyada sakitlik aramadım mən,
Günəş kimi parla, səhər kimi gəl.
Göylərtək yuxuma gəlmək istəsən,
Sən aylı, ulduzlu göylər kimi gəl.

Adla qucağından gur tufanların,
Mən baxım axşamdan səhərə kimi.
Adla ağ yoluyla kəhkəşanların,
Parlasın hər ulduz xatirə kimi.

Gəl, qış gecəsində, yaz səhərində,
Dənizi göylərdən ayırmaq olmaz!
Sonsuz kainatın üfüqlərində,
Sən görüş vaxtını şimşəklərlə yaz!

Mən gərək nəğmətək səni dinləyəm,
Sən mənim eşqimlə, ürəyimləsən.
Nə qədər göylər var, mən səninləyəm,
Nə qədər dəniz var, sən mənimləsən.

## Olsaydım

Mən bulaq olsaydım susardımmı heç?
Qaynardım qayalar, dağlar içindən,
Deyərdim, sən məndən bir ovuc gəl iç
Keçəndə bağçalar, bağlar içindən!

Mən ağac olsaydım, çinar olardım,
Hər bahar səslənib gələrdim dilə,
Sizin bağçanızdan mən ucalardım
Səni oyatmaqçün nəğmələrimlə.

Mən külək olsaydım çox tələsərdim,
Bir anda dağlardan ötərdim asan.
Gecə qapınızdan asta əsərdim,
Deyərdim, yuxudan oyanmayasan.

Mən bulud olsaydım, qalxıb qayadan
Qarlı zirvələrdə qonaq qalardım.
Yayda göy üzündən od yağan zaman
Sən keçən yollara kölgə salardım.

Mən dəniz olsaydım, nəğmə dilimdə,
Coşardım əbədi məhəbbət ilə:
Saxlardım həmişə öz sahilimdə
Sənin izlərini qənimət kimi.

Mən günəş olsaydım, nur yaya-yaya
Zülmət gecələri erkən boğardım.
Bütün insanlığa, bütün dünyaya
Sizin evinizin üstdən doğardım…

## İkilikdə

Gəl bölək dünyanı ikilikdə biz
Dərə mənə düşsün, dağı sən götür.
Qalsın yer üzündə qoşa izimiz
Qara mənə düşsün, ağı sən götür.

İlin övladıyıq yayla qış kimi
Fəsillər yaşasın yanaşı məndə
Birgə bir yerdəyik gözlə qaş kimi
Gözlər səndə qalsın, göz yaşı məndə.

Gündüzü, gecəni əziz saxlayaq
Günəş sənə düşsün, ay mənə qalsın
Coşğun sellər kimi birgə çağlayaq
Dəniz sənin olsun, çay mənə qalsın.

Bizik bu dünyada səninlə şərik
Bizsiz nə qış gülər, nə də ki bahar
Həyatda hər şeyi bölə bilərik
Amma bölünməyən: bir sevgimiz var...

# İdman

## Ağır atletika üzrə yığma komandamız İsraildə Avropa birinciliyində iştirak edəcək



Dekabrın 7-dən 14-dək İsrailin Eylat şəhərində 15 və 17 yaşadək yeniyetmələr arasında ağır atletika üzrə Avropa birinciliyi keçiriləcək.

Yarışda 37 ölkədən 498 idmançı (228 qız və 270 oğlan) iştirak edəcək. Onların arasında Azərbaycan yığmasının üzvləri də qüvvələrini sınayacaqlar.

Yığmamızın baş məşqçisi Asif Məmmədovun rəhbərliyi altında Aişə Əliyeva, Selcan Qarayeva, Rəhilə Hüseynova, Leyla Qurbanlı, Kənan Rəhimov, Qasım İsmayılov, Elşən Məmmədov, Nurlan Məmmədzadə, Əvəz Tağıyev, Tehran Məmmədov, Rüstəm Qasımov, Ömər Cavadov, Samir Əskərzadə, Həsənağa Sahibov, İsa Həsənli, Tarmenxan Babayev, Əli Şükürlü və Rəhman Kazımov körpücük üzərinə çıxacaqlar.

Ədalət təmsilçisi olaraq İsraildə ölkəmizi beynəlxalq dərəcəli hakim Səbinə Rzayeva təmsil edəcək.

## Şahmatçımız Abdulla Qədimbəyli Serbiyada üçüncü olub



Azərbaycan şahmatçısı Serbiyada keçirilən beynəlxalq turnirdə üçüncü olub.

Təmsilçimiz Abdulla Qədimbəyli 9 turdan 7 xal toplayaraq üçüncü yeri tutub. Onu cəmi yarım xal qabaqlayan serbiyalı Branko Damljanovic turnirin qalibi olub. Digər şahmatçımız Nail Bəşirli isə 6 xalla 12-ci pillədə qərarlaşıb.

## Azərbaycanın aparıcı cüdoçuları Yaponiyada təlim-məşq prosesində iştirak edirlər



Azərbaycanın cüdo üzrə kişilərdən və qadınlardan ibarət milli komandalarının aparıcı üzvləri hazırda Yaponiyada təlim-məşq toplanışındadırlar.

İdmançılarımız baş məşqçilər Ruslan Maşurenko, Rəşad Məmmədov və məşqçi Elxan Məmmədovun rəhbərliyi ilə gündə iki dəfə məşq edirlər.

Tokiodakı toplanışda Kəramət Hüseynov, Oruc Vəlizadə, İbrahim Əliyev, Orxan Səfərov, Nicat Şıxəlizadə, Rüstəm Orucov, Hidayət Heydərov, Murad Fətiyev, Məmmədəli Mehdiyev, Elmar Qasımov, Zelim Kotsoyev, Uşangi Kokauri, İçinxorloo Munxtsedev, Aişə Qurbanlı, Leyla Əliyeva, Aleksandra-Larisa Florian və Gültac Məmmədəliyeva qoşulublar.

Cüdoçularımızın bu il sonuncu ciddi sınağı dekabrın 12-dən 15-dək Çində keçiriləcək nüfuzlu "Masters" yarışı olacaq.

## İrina Zaretska Olimpiya reytinqində birinci, Rafael Ağayev dördüncüdür



Dünya Karate Federasiyası (WKF) idmançıların Olimpiya reytinq cədvəlini açıqlayıb.

Dünyanın ən güclü 20 karateçisinin arasında Azərbaycan yığmasının iki üzvü yer alıb. Dünya çempionu İrina Zaretska əvvəlki kimi 61 kiloqramdan yuxarı çəki dərəcəsində liderliyini davam etdirir (6772,5 xal). Dəfələrlə dünya və Avropa çempionu Rafael Ağayev isə 5595 xalla 75 kiloqram çəki dərəcəsində dördüncü yerdə qərarlaşıb. Komandamızın digər üzvü Firdovsi Fərzəliyev (67 kq) isə ilk 20-dən kənarda qalıb. İdmançımız 2482,5 xalla 21-cidir.

**AZƏRTAC-ın materialları əsasında**

**Baş redaktor**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik
Şəfaət Mehdiyev küçəsi 144,
"Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
leytenant
Mahmud MÖHBALIYEV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur.
"Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 1017
Nüsxə 3950